**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

**Q Ə R A R**

**№ 33/18**

**Bakı şəhəri** **19 sentyabr 2024-cü il**

**"Avtomobil, motosiklet və qoşquların markalarına, tiplərinə görə sayı və texniki vəziyyətinə dair" 3-DYP №-li illik rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstəriş haqqında" Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2013-cü il 1 oktyabr tarixli 111/09 nömrəli qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə"nin 9.6-cı və 14.4-cü bəndlərini rəhbər tutaraq Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**qərara alır:**

1. "Avtomobil, motosiklet və qoşquların markalarına, tiplərinə görə sayı və texniki vəziyyətinə dair" 3-DYP №-li illik rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstəriş haqqında" Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2013-cü il 1 oktyabr tarixli 111/09 nömrəli qərarında aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin qərarla təsdiq edilmiş "Avtomobil, motosiklet və qoşquların markalarına, tiplərinə görə sayı və texniki vəziyyətinə dair" 3-DYP №-li illik rəsmi statistika hesabatı formasının "III bölmə. Nəqliyyat vasitələrinin istifadə etdiyi yanacağın növünə və yük tutumuna görə bölgüsü" cədvəlinin:

1.1.1. adında "istifadə etdiyi yanacağın" sözləri "mühərrik" sözü ilə, 238-ci sətrində "istifadə etdiyi yanacağın növlərinə" sözləri "mühərrik növünə" sözləri ilə əvəz edilsin, 238.4-cü, 239.4-cü, 240.4-cü, 241.4-cü və 242.4-cü sətirlərindən "mühərrikli" sözü çıxarılsın;

1.1.2. aşağıdakı məzmunda 238.5.1-ci, 239.5.1-ci, 240.5.1-ci, 241.5.1-ci və 242.5.1-ci sətirlər əlavə edilsin:

| | | |
|---|---|---|
| ondan: plug-in hibrid | 238.5.1 | |

| | | |
|---|---|---|
| ondan: plug-in hibrid | 239.5.1 | |

| | | |
|---|---|---|
| ondan: plug-in hibrid | 240.5.1 | |

| | | |
|---|---|---|
| ondan: plug-in hibrid | 241.5.1 | |

| | | |
|---|---|---|
| ondan: plug-in hibrid | 242.5.1 | |

1.2. həmin qərarla təsdiq edilmiş "Avtomobil, motosiklet və qoşquların markalarına, tiplərinə görə sayı və texniki vəziyyətinə dair" 3-DYP №-li illik rəsmi statistika hesabatı formasının doldurulmasına dair göstəriş"in "3.3. III bölmə. Nəqliyyat vasitələrinin istifadə etdiyi yanacağın növünə və yük tutumuna görə bölgüsü" bölməsinin adında "istifadə etdiyi yanacağın" sözləri "mühərrik" sözü ilə, 3.3.2-ci yarımbəndində "növləri üzrə istifadə etdikləri yanacağa" sözləri "mühərrik növünə" sözləri ilə, "238-242.5-ci" sözləri "238-242.5.1-ci" sözləri ilə əvəz edilsin.

2. Qərar qəbul edildiyi gündən üç gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

3. Aparatın Xidmət statistikası şöbəsinə tapşırılsın ki, bu qərardan irəli gələn məsələləri həll etsin.

4. Qərarın icrasına nəzarət Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinə həvalə olunsun.

**Sədrin səlahiyyətlərini müvəqqəti**
**icra edən, sədrin birinci müavini** **Vahab Məmmədov**